**Elnarə İntiqam qızı MAZANDAROVA**
Azərbaycan Dövlət Pedaqoji Universiteti, Müəllim
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Doktorant
E-mail: mazandarova@inbox.ru
Orcid İD: 0000-0001-6745-198X

# ZİRZƏMİNİ İŞIQLANDIRAN SƏNƏT

**Xülasə:** Məqalədə Azərbaycanın Əməkdar rəssamı Rais Rəsulzadənin sürgün həyatından sonra Azərbaycana dönərək hansı çətinliklərlə üzləşməsindən, doğma vətənində, ata-baba yurdunda qalmağa yeri olmadığına görə, ömrünün 12 ilini zirzəmidə yaşayıb-yaratmaq məcburiyyətində qalmasından bəhs edilir. Zirzəmidəki şəraitə baxmayaraq, rəssam öz tutduğu yoldan dönməmiş və bütün çətinliklərə sinə gərərək, sonunda istəklərinə nail ola bilmişdir. Burada rəssamın sənətinin Qazaxıstandan başlayaraq, hansı yollardan keçərək hazırki dövrə gəlib çatması, bütün xırdalıqlarına kimi öz əksini tapmışdır. Mətndə Məmməd Əmin Rəsulzadənin nəvəsi olan Rais Rəsulzadənin vətənə döndükdən sonra hansı çətinliklərlə üzləşməsi, hansı məqamlarda dostlar qazanması, sənətdə kimlərə dəstək olması və bir çox digər məsələlərə toxunulmuşdur. Bütün çətinliklərə baxmayaraq rəssam sənətdə inkişaf edərək formalaşmış və hazırki Azərbaycan müasir incəsənətində özünəməxsus yaradıcılığı ilə seçilməyi bacarmışdır. Rais Rəsulzadə dəsti-xəttinin formalaşması, birbaşa vətəni Azərbaycana olan sevgisindən qaynaqlanır. Müxtəlif janrlarda əsərlər yaradan sənətkar, mənzərə janrında olan əsərləri ilə seçilir. Məqalənin əsas məqsədi, əzmkar sənətkarın çətinliklərlə dolu sənət yolunda büdrəmədən irəliləməsi və bununla da gənc nəslə nümunə olmasıdır. Müəllif "rəssamın sürgündəki həyatı", "rəssamın yaradıcılığı", "rəssamın vətəndə qarşılaşdığı çətinliklər", "Azərbaycan müasir incəsənətində rəssamın yeri" kimi anlayışları araşdırır.

**Açar sözlər:** əməkdar rəssam, sürgün, mənzərə, yaradıcılıq, zirzəmi

**UOT:** 74.01/.09

**DOI:** doi.org/10.54414/ruzg5072

## Giriş

Azərbaycan Təsviri sənətinin görkəmli nümayəndələridən olan, əməkdar rəssam Rais Azər oğlu Rəsulzadə 1946-cı ildə Qazaxıstanda anadan olmuşdur. Siyasi repressiya nəticəsində vətənindən didərgin düşmüş Rəsulzadələr ailəsindən olan Rais Rəsulzadə də bu ağır yükü körpə yaşlarından öz çiyinlərində daşımağa məhkum olmuşdur. Qazaxıstanda anadan olub, böyüyüb, boya-başa çatmasının da səbəbi, məhz ailəsinin Qazaxıstanın ucqar, yaşamağa yararsız yerlərinə sürgünə göndərilməsi idi. Körpə yaşında anasını itirən rəssam, ilk təhsilini də elə Qazaxıstanda rus dilində almağa başlayır. Məktəb həyatı da o qədər də asan olmur. Müəllimlərin bir qismi sürgündə olan ailələrin uşaqlarını sıxışdırır, onlara yaxşı yanaşmırdılar. Lakin, Alman mədəniyyəti və ədəbiyyatını şagirdlərinə sevərək anladan, sürgün edilmiş bir alman müəlliməni rəssam ömrü boyu xoş xatirələrində yaşadacaq. Çünki, sürgündə bu cür münasibətə çox nadir hallarda rast gəlinirdi. Rəssamın bacarıqları artıq kiçik siniflərdən bəlli olmağa başlayır. O, məktəbin

ictimai həyatında yaxından iştirak edir, divar qəzetləri və stendlər hazırlayır, məktəbdə keçirilən müxtəlif yarışlara da qoşulurdu. Şahmat oynamağı atası Azərdən öyrənən rəssam, məktəbdə birinciliklər də qazanmışdır. Şahmatdan əlavə yüngül atletika üzrə də yüksək nəticələr əldə edirdi. Məktəbdə kiçik siniflərdə oxuyarkən ona və onun kimi digər şagirdlərə tarlada, əkin sahələrində çuğundur, sünbül yığdırırdılar. Yorğun halda axsham evə dönərkən isə bişmiş çuğundur və ya qarğıdalı çörəyindən başqa yeməyə bir şey olmurdu.

Doqquzuncu sinifdə oxuyarkən məktəbdən ayrılmadan Moskvanın Krupskaya adına Ümumittifaq İncəsənət Universitetinə də qəbul olur. Bütün verilən tapşırıqları səylə yerinə yetirən rəssam, Universitet müəllimlərindən təşəkkür məktubları alır. Məktəbi və qiyabi Universiteti eyni zamanda bitirən rəssamın artıq 50-60 əsəri var idi ki, bu da sənətinin parlaq olacağından xəbər verirdi. Attestatını alan kimi isə daim həsrətini çəkdiyi vətəni Azərbaycana gəlir. Bakıda vaxtilə üç evləri olan Rais rəsulzadə qalmağa yer tapmır. Üz tutur qohumlarıgilə. Səhərisi gün isə Əzim Əzimzadə adına rəssamlıq məktəbinə yollanan rəssam, orada heç kimin olmadığını və sənədləri vermək üçün gecikdiyini görür. Lakin, otaqların birində sənəd qəbulu ilə məşğul olan tədris hissəsinin müdiri Ağabala müəllim onu qarşılayır. Attestatına nəzər saldıqdan sonra Raisi Əzim Əzimzadə adına rəssamlıq məktəbinin yeni təyin olunmuş direktoru rəssam Əyyub Məmmədovun yanına apararaq, onun başına ağıl qoymasını söyləyir. Əyyub Məmmədov iki-üç "yaxşı"dan başqa bütün qiymətləri "əla" olan gəncə canıyananlıqla: "Bala, ağsaqqal düz deyir, bu attestatla sən universitetə, ali məktəblərdən birinə get, rəssamlığını eləyərsən də!" deyir[1]. Rais isə öz növbəsində məhz bu məktəbi istədiyini deyərək qəbul olunması üçün xahiş edir. Bununla da imtahanlardan müvəffəqiyyətlə keçən rəssam məktəbə qəbul olur. Lakin onun nə qalmağa yeri, nə əsərlərini işləməyə şəraiti yox idi. Buna baxmayaraq illər sonra sürgünə məhkum olaraq Rəssamlıq məktəbini yarımçıq qoyub vətəni tərk edən atası Azər Rəsulzadənin ürəyində qalan arzusunu gerçəkləşdirərək, 1969-cu illərdə Əzim Əzimzadə adına rəssamlıq məktəbinin tələbəsi olur. Tələbəlik illərində yataqxanada qala bilmək imkanı, onun üçün göydən düşmə bir şans idi. 1965-ci ilin noyabr




ayından artıq yataqxanada qalmağa başlayır. Bundan əlavə qohumu olan Toğrul Sadıqzadə Raisin işlərinə baxaraq, onun bacarıqlı gənc olduğuna sözsüz inanmış və öz emalatxanasının açarlarından bir nüsxə verərək ehtiyacı olan vaxt orada qala və işləyə biləcəyini söyləmişdir.

Tələbəlik illərində məktəb dərslərindən əlavə rəssamı ədəbiyyat və fəlsəfəyə aid kitablar da cəlb edirdi. O, daim kitablar oxuyar, axşamlar bütün tələbələr bir yerə yığışarkən, oxuduqları haqqında maraqlı söhbətlər aparardı. Hətta xarici rəssamların yaradıcılıqlarını araşdıran Rais Rəsulzadə diplom müdafiəsinə bir həftə - on gün qalmasına baxmayaraq, bir qrup sənət yoldaşları ilə yığışaraq, Fransa heykəltaraşı

və rassamı Anri Matisin Moskvada təşkil olunmuş yubiley sərgisinə yollanmışdılar.

Sənətini ilk öncə atası Azər Rəsulzadədən, Azərbaycana gəldikdən sonra isə, Toğrul Sadıxzadə, Oqtay Sadıxzadə, Hafiz Məmmədov, Kamil Xanlarov kimi rəssamlardan öyrənirdi. Sənətinə bağlı rəssam, tələbə dostlarıyla birlikdə əvvəl Yasamal ərazilərini, sonra isə ümumi Abşeron torpaqlarını gəzərək etüdlər işləyirdilər. O ərəfələrdə hətta Lev Tolstoy küçəsində yerləşən bir mərtəbəli evi kirayə götürərək özlərinə yaradıcılıq emalatxanası etmişdilər.

Ümumiyyətlə 60-cı illər Azərbaycan incəsənətində intibah dövrü hesab edilirdi. Həmin dövrdə Tahir Salahov, Toğrul Nərimanbəyov, Səttar Bəhlulzadə kimi simalar məşhur idi və yeni nəsil istedadlı rəssamlar meydana gəlməyə başlamışdı. Yataqxanada həm Əzim Əzimzadə adına Rəssamlıq məktəbinin, həm hazırki İncəsənət Universitetinin, həm Asəf Zeynallı adına Musiqi Texnikumunun tələbələri, həm xaricdən gəlmiş tələbələr yaşayırdı. Rais Rəsulzadənin qonşuluğunda Rasim Balayev, Səməndər Rzayev, Mikayıl MİrzəyevMİrzəyev kimi, sonradan görkəmli incəsənət xadimi adını qazanmış tələbələr yaşayırdı və onlar daim ünsiyyətdə idi.

1969-cu ildə, rəssamlıq məktəbini bitirdikdən sonra, hələ hərbi xidmətə getməmişdən öncə, Karaqandaya atasına baş çəkməyə gedir. Sonra isə Rusiyanın Penza vilayətinin Kuznevsk şəhərinə hərbi xidmətə gedən rəssam orada da öz sənətini davam etməyi bacarır, böyük monumental işlər ərsəyə gətirir. Həm hərbi hissənin özündə, həm şəhərdə mozaikalar, rəsmlər, müxtəlif portretlər çəkir. Raisin istedadını anlayan baş komandir onu hərbi hissənin hesabına tikilən uşaq bağçasının layihəsini verməsi üçün özüylə aparacağını söyləyir.

15 gündən sonra onun Saratova aparılması üçün komandir tərəfindən xüsusi təyyarə göndərildi( bu adi bir Sovet əsgərinin yüksək istedadının həm də nümunəsi idi ki, dəyərləndirilirdi)[2]. Bu layihəni uğurla təhvil verən rəssam, həmçinin 12 hərbi hissə arasında keçirilən və "Hərbi hissənin ən yaxşı tərtibi" adlanan müsabiqədə də iştirak edərək, qulluq etdiyi hərbi hissəni müsabiqənin qalibi edə bilmişdi.

Hərbi xidmətdən Bakıya qayıdan Rais Rəsulzadə, yaşamaq üçün yer tapmaq kimi çətinliklə üzləşir. Baxmayaraq ki, vaxtilə Bakıda babası Məhəmməd Əmin Rəsulzadənin Nizami küçəsi 59 ünvanında, Bakının Novxanı kəndində babasının atasının, hazırki Nizami metrosunun yerində babasının əmisinin evi vardı, amma illər sonra vətənə qayıtmış Rəsulzadə üçün artıq qalmağa yer yox idi...

Bütün bu çətinliklərə baxmayaraq rəssam mütləq şəkildə Azərbaycanda – Bakıda qalaraq yaşayıb-yaratmaq fikrində idi. Məcburiyyət qarşısında bir müddət tanışlarının emalatxanalarında qalır və elə həmin ərəfələrdə də tanışlarından biri ona məsləhət verir ki, Rəssamlar İttifaqı sənətlə məşğul olanlara emalatxanalardan əlavə həm də rəssamlara birdəfəlik sifarişləri yerinə yetirmək üçün müəyyən müddətlik qeyri-yaşayış mənzilləri də ayırırlar. Rəssam bu xəbəri eşidər-eşitməz, soyuq qış ayları olmasına baxmayaraq, şəhərdə mənzil axtarmağa başlayır. Tapdığı bir çox uyğun mənzillərə görə rədd cavabı alan sənətkar, nəhayət hazırki Süleyman Rüstəm küçəsində, içərisi tullantılarla dolu bir zirzəmini onun üçün ayırırlar. Dostu rəssam Rza Avşarovla birlikdə zirzəmini təmizləməyə başlayırlar və oradan iki maşın tullantı çıxır. İlk günlər soyuq zirzəmidə 3 gün 3 gecə paltoda oturur. Nəm və şəraitsiz, divarlarının suvağı tökülən, soyuq, susuz, qazsız, işıqsız zirzəmini təmir

etmək üçün usta cəlb edir. Əsgərlikdə əldə edə bildiyi qazancının hamısını zirzəminin təmirinə sərf edir. Nisbətən səliqəyə saldıqdan sonra işləməyə başlayır.

Hərbi xidmətdən qayıtdıqdan sonra iş prosesini bərpa etmək üçün uşaqlardan, qoca kişilərdən natura kimi istifadə edərək əsərlər çəkirdi. Artıq zirzəmidə yaradıcı mühit hökm sürməyə başlamışdı, cavan rəssamlar gəlir, sənət haqqında müzakirələr, müəyyən cərəyanların analizi aparılırdı. Birlikdə sərgilərə də gedilir, incəsənət tarixinin görkəmli rəssamlarının həyat və yaradıcılıqları mütaliə olunurdu.

İki həyətin arasında yerləşən, əvvəllər halva fabriki kimi fəaliyyət göstərən köhnə bir binanın zirzəmisi, Rais Rəsulzadə üçün həm ev, həm emalatxana oldu. Lakin, zirzəmidə yaşamasını gizlətməli idi. Qonşuluqda oğlu ilə birlikdə yaşayan yəhudi bir qadın, günlərin birində rəssama yaxınlaşaraq, qonşu məhəllədən sakinlərin ona kağız gətirərək imzalamağını istədiklərini bildirib. Onlar zirzəmidə emalatxana açılaraq gecə-gündüz dəzgahların işləməsini və səs-küydən yata bilməmələrini iddia edirdilər. Lakin, yəhudi qadın öz növbəsində, zirzəmidə nəinki heç bir dəzgahın olmamasını, hətta, zirzəminin sahibini belə görməməsini söyləyərək, şikayətçiləri qovur.

Bir gün rəssam həyətə gəldikdə görür ki, qaz çəkənlər, yayın isti günlərində qapısını açıq qoyub getmiş zirzəmisinə, çətinlik çəkmədən daxil olaraq qaz çəkillər. Tapşırığı kimin verdiyini soruşan rəssam, cavabında qaz idarəsinin rəisi Nadir müəllimin olduğunu deyirlər. Nadir müəllim Toğrul Sadıxzadənin dostu imiş. O, bir dəfə emalatxanada olarkən, şəraitsizliyi görmüş və yaradıcılığını bəyəndiyi Raisə bu yolla təmənnasız dəstək olmaq istəmişdi. Qaz xətti çəkildikdən sonra artıq qışda da işləmək üçün rahat, isti şərait əmələ gəldi.

Yerdən on bir pilləkən aşağıda yerləşən zirzəminin pəncərəsi 1.70 sm hündürlükdə idi və yalnız günorta saat 12-yə kimi işıqlı olurdu. Bu səbəbdən rəssam səhər tezdən işə başlayaraq, günorta bitirməyə çalışırdı. Bir dəfə səhər saat 5-də Rəssamlar İttifaqının sifarişini yerinə yetirərəkən bütün gecəni çalışan rəssamın pəncərəsindəki işığı görən qarşı binada yaşayan fotoqraf, marağını gizləyə bilməyərək, qapını döymüş və burada bir rəssamın çalışdığını öyrənmişdi. Abşeronu gəzərək fotolarını çəkən həmin fotoqraf, sonralar rəssam Rais Rəsulzadə haqqında məqalə yazmışdı.

Zirzəminin qaranlığında bir çox sənət əsərləri işıq üzü görürdü. Bunlardan biri də, "Şəhid anası" əsəri idi. Hazırda bu əsərin yalnız eskizləri qalıb. Bundan əlavə o dövr Vyetnam müharibəsinə həsr olunmuş, 1,75 x 1,75 ölçüdə olan "Bu gün" adlı əsər idi ki, 1974-1975-ci illərdə ərsəyə gətirilmişdi. Bəzən daha böyük, 3x2 m ölçülü əsərlər olduqda, zirzəmidən çıxarmaq çətinlik yaradırdı. Zirzəmidə yaratdığı əsərlərindən oğurlananlar da olmuşdu. Əsərlərinin çərçivəsinə görə, özləri də qurban getmişdi.

Sözsüz ki, bu cür şəraitsizlik rəssamın sağlamlığına da mənfi təsirsiz ötmədi. Bir dəfə "Babamın babasının babası" filminin rəssamlarla birlikdə Şəkiyə ezamiyyətə gedən rəssam, oradan qayıtdıqdan sonra sağlamlığında narahatlıq hiss edir. Bu səbəbdən həkim Raisə zirzəmidə yaşamağı qadağan edir. Xoşbəxtlikdən artıq rəssam Əhmədli metrosuna yaxın ərazidə 18kv metrlik bir yer almışdı və artıq boş döşəmədə də olsa, zirzəmi olmayan yerdə yaşamağa başlayır. Lakin, həmin zirzəmini emalatxana kimi 1994-cü ilədək işlədir.

Bütün bu çətinliklərin öhdəsində gəlməyi bacaran Rais Rəsulzadə bəzən özünə sual

verir: "Nə idi onu bu çətinliklərdən keçməyə, əzmkarlıqla zirzəminin qaranlığında yaşayıb-yaratmağa vadar edən?" Cavabı isə bəllidir – Vətən sevgisi, Vətən həsrəti...

Rəssamın yanına zirzəmiyə gələn rəssamlar, heykəltəraşlar, buranın bütün emalatxanalar içərisində bir nömrəli emalatxana olduğunu söyləyirdilər. Cavan rəssamlar isə çətinliklər qarşısında Rais Rəsulzadənin sönməz iradəsindən, əzmindən ilhamlanıqlarını vurğulayırdılar. Hətta onlardan dördü rəssamın portretini belə çəkmişdi.

1972-ci ildə rəssam zirzəmidə yaşayarkən, hazırki Azərbaycan Dövlət Pedaqoji Universitetinin bədii qrafika fakültəsinə daxil olur və 1977-ci ildə ali təhsilini müvəffəqiyyətlə bitirən rəssamı, elə Pedaqoji Universitetin "Rəsm, heykəltəraşlıq və boyakarlıq" kafedrasına müəllim vəzifəsinə götürürlər. Elə həmin il, 1978-ci ildə rəssam keçmiş SSRİ və Azərbaycan rəssamları ittifaqına üzv qəbul olunur. Bir çox yerli və xarici sərgilərdə əsərləri sərgilənir. Bu ölkələrdən Türkiyə, Rusiya, Kuba, ABŞ, Polşa, Əfqanıstanı misal göstərmək olar. O-nun işlədiyi müxtəlif tutumlu tablolarda ("Şərq natürmortu", 1980; "Metro inşaatçıla-rı", 1986; "Gizlində", 1988; "Yorğun əsgər", 1989) psixoloji yozumlar və ovqat ifadəsi ("Rəssam Qadir Süleymanovun portreti", 1985, "Balıqçının portreti", 1990) fərdi müəllif yaşantıları ilə qoşalaşdığından çox düşündü-rücüdürlər[3].

Rəssamın yaradıcılığında müxtəlif üslublara rast gəlinsə də, əsərlərini daha çox mənzərə janrında görə bilərik. Bu da doğma yurda bağlılıq, vətən sevgisi, vətən həsrətindən irəli gəlir.

Hazırda Rais Rəsulzadənin 800-dən çox əsəri vardır ki, bunlardan da bəziləri Azərbaycan və xarici ölkələrin qalereyalarında və şəxsi kolleksiyalarda saxlanılmaqdadır.

Sənətkar 2002-ci ildən "Azərbaycan Respublikası əməkdar rəssamı" fəxri adını daşıyır. 2009-cu ildən isə Azərbaycan Siyasi Repressiya Qurbanları Assosiasiyasının rəhbəridir.

## ƏDƏBİYYAT SİYAHISI:

1. https://525.az/news/72778-adinda-ve-fircasinda-isiq-dasiyan-fotolar
2. https://525.az/news/66488-resulzade-yadigari
3. https://medeniyyet.az/page/news/19651/Rep%C2%ADres%C2%ADsi%C2%ADya-yel%C2%ADle%C2%ADrin%C2%ADden-ke%C2%ADcen-se%C2%ADnet-yo%C2%ADlu.html?lang=az

**Эльнара Интигам кызы МАЗАНДАРОВА**
Азербайджанская Государственная Академия Художеств, докторант
Азербайджанский Государственный Педагогический Университет, педагог

## ИСКУССТВО ОСВЕЩАЮЩЕЕ ПОДВАЛ

**Резюме:** В статье рассказывается о трудностях, с которыми столкнулся заслуженный художник Азербайджана Раис Расулзаде, вернувшись в Азербайджан после жизни в изгнании, о том, как он был вынужден жить и творить в подвале 12 лет своей жизни, потому что ему негде было остановиться. Несмотря на тяжкие условия в подвале, художник не свернул с избранного пути и, невзирая на все трудности, в конце концов смог осуществить свое желание. Здесь во всех подробностях отражено искусство художника, начиная с

Казахстана, и какими путями оно дошло до настоящего периода. В тексте затронуты трудности, с которыми столкнулся Раис Расулзаде, внук Мамед Амина Расулзаде, после возвращения на родину, в какие моменты он завел друзей, кого поддерживал в искусстве и многие другие вопросы. Преодолевая все трудности, художник развивая и совершенствуя навыки, сумел выделиться своим уникальным творчеством в современном искусстве Азербайджана. Формирование стиля Раиса Расулзаде напрямую связано с его любовью к своей родине, Азербайджану. Художник, создающий работы в различных жанрах, выделяется своими работами в жанре пейзажа. Основная цель статьи состоит в том, чтобы показать как художник упорно продвигался по трудному пути искусства и тем самым стать примером для подрастающего поколения. Автор исследует такие понятия, как «жизнь художника в изгнании», «творчество художника», «трудности, с которыми сталкивается художник на родине», «место художника в современном искусстве Азербайджана».
***Ключевые слова:*** *заслуженный художник, ссылка, пейзаж, творчество, подвал*

**Elnara Intigam Mazandarova**
Azerbaijan State Academy of Arts, doctoral student
Azerbaijan State Pedagogical University, teacher

## ART THAT LIGHTS UP BASEMENT

**Summary:** The article talks about the difficulties faced by Rais Rasulzadeh, the honored artist of Azerbaijan, returning to Azerbaijan after his life in exile, how he had to live and create in the basement for 12 years of his life because he had no place to stay in his native land, his ancestral home. Despite the conditions in the basement, the artist did not turn from the path he took and, braving all the difficulties, was able to achieve his wishes in the end. Here, the artist's art, starting from Kazakhstan, and through which paths it reached the current period, is reflected in all its details. In the text, the difficulties faced by Rais Rasulzadeh, the grandson of Mammad Amin Rasulzadeh, after returning to his homeland, at which times he made friends, who he supported in art, and many other issues were touched upon. Despite all the difficulties, the artist developed and formed in art and managed to stand out with his unique creativity in the contemporary art of Azerbaijan. The formation of Rais Rasulzade's style stems directly from his love for his homeland, Azerbaijan. The artist, who creates works in various genres, stands out for his works in the landscape genre. The main purpose of the article is that the determined artist can advance on the artistic path full of difficulties without stumbling and thereby become an example for the younger generation. The author explores concepts such as "the life of an artist in exile", "artist's creativity", "difficulties faced by the artist in the homeland", "the place of the artist in the modern art of Azerbaijan".
***Keywords:*** *honored artist, exile, landscape, creativity, basement*

**Daxil olub:** 02.07.2021